

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 89 (23.251)

*14 may 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Belçika Krallığına işgüzar səfərə gəlib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikalıların Kralı Əlahəzrət Filip ilə görüşü olub.

Görüşdə Azərbaycan-Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib.

Prezident İlham Əliyev Belçikalıların Kralı Əlahəzrət Filipə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunulub, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirilib.



## F.N.Seyidovun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Famil Naqim oğlu Seyidov Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 may 2019-cu il*

## Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Xalq yazıçısı Hüseyn Məmmədəli oğlu İbrahimovun 2019-cu il mayın 23-də anadan olmasının 100 illiyi tamam olur.

Böyük ziyalılar yetirmiş Şahtaxtı kəndində anadan olan Hüseyn İbrahimov orta məktəbi bitirdikdən sonra Naxçıvan Pedaqoji Texnikumunda oxumuş, 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır.

1940-cı ildə Sədərək kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayan Hüseyn İbrahimov sonrakı illərdə Naxçıvanda müxtəlif vəzifələrdə, o cümlədən "Şərq qapısı" qəzetinin redaktoru, Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri, mədəniyyət naziri, Yazıçılar Birliyinin sədri vəzifələrində işləmiş, üç çağırış muxtar respublika Ali Sovetinin və bir çağırış Ali Məclisin deputatı olmuşdur.

Zəngin yaradıcılıq fəaliyyətinə malik Hüseyn İbrahimov ədəbi fəaliyyətə ötən əsrin 40-cı illərindən başlamışdır. Xalq yazıçısının tarixi keçmişimizdən bəhs edən əsərləri oxucular tərəfindən həmişə rəğbətlə qarşılanmış, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rol oynamışdır.

Onun yarım əsrdən artıq dövrü əhatə edən çoxşaxəli fəaliyyətinə 100-ə yaxın hekayə, 20-dən çox novella, 3 pyes, 8 povest, 5 roman və dünya ədəbiyyatının dəyərli nümunələrinin tərcüməsi daxildir.

Yazıçının ədəbiyyat sahəsindəki fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, "Şöhrət" ordeni ilə təltif edilmiş, "Xalq yazıçısı" adına layiq görülmüşdür.

Xalq yazıçısı Hüseyn İbrahimovun ədəbi fikrin inkişafındakı xidmətlərini nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.
2. "Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 may 2019-cu il*

*İcmal*

## Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelinin tərkib hissəsi olan mütərəqqi inkişaf strategiyası qətiyyətlə həyata keçirilir

***Ölkəmizin, o cümlədən qədim diyarımızın inkişafı, yüksəlişi üçün daim çalışan ümummilli liderimiz Heydər Əliyev xalqı və dövləti qarşısındakı müqayisəolunmaz xidmətləri ilə təkcə böyük tarixi epoxanın yaradıcısı yox, həm də alternativi olmayan mütərəqqi inkişaf strategiyasının müəllifidir. Məhz həmin strategiyanın muxtar respublikamızda vətənpərvərliklə davam etdirilməsinin nəticəsidir ki, bu gün özünün sosial-iqtisadi inkişaf dövrünü yaşayan, günü-gündən çiçəklənən qədim diyarımız beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkan kimi şöhrət qazanıb, belə mühüm tədbirlərin reallaşdırılmasında hər kəsin rəğbətlə ifadə etdiyi inkişafın Naxçıvan nümunəsini yaradıb.***

Muxtar respublikanın sürətli inkişafı ölkəmizin tərəfdaşı olan dövlətlərlə iqtisadi-ticarət, humanitar-mədəni əlaqələrinin genişlənməsinə də yol açıb.

Aprelin 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli, aprelin 9-da İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani, aprelin 16-da isə Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti ilə görüşüb. Görüşlərdə iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunulub.

Müasir dövrdə təhsilin innovasiyayönümlü inkişafı mühüm əhəmiyyət kəsb edir. Təbii ki, innovasiya dedikdə təhsil, tədris-təlim prosesinin gedişini və alınmış nəticələrin keyfiyyətini yüksəltmək məqsədilə həyata keçirilən yeni ideyalar, texnologiyalar, metodlar, vasitələr və əldə olunmuş nəticələr nəzərdə tutulur. Bu nəticələri innovasiyaların tətbiqi üzə çıxarır. Əminliklə deyə bilərik ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Ötən illərdə bu sahədə yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi də muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.



Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirədə də bu məsələlər qeyd olunub, müvafiq tapşırıqlar verilib.

Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələr hər il müasir silah və texnikalarla təmin olunur. Bu da mütəxəssis hazırlığını zəruri edir. Ona görə də muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər sırasında kadr hazırlığına xüsusi diqqət yetirilir. Nəticədə, mürəkkəb reaktiv qurğuları və digər döyüş texnikalarını idarə edən şəxsi heyət formalaşıb. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində yaradılan şərait bu sahədə işlərin uğurla həyata keçirilməsinə imkan verir.

Aprelin 18-də Təlim-Tədris Mərkəzində Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının uzlaşdırılmış plan üzrə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib. Ali Məclisin Sədri təlimi izləyib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün alınmış xidməti avtomobillərə baxışdan sonra təlim başlayıb.

Ali Məclisin Sədri nəzəri dərslərin real ərazi maketləri üzərində keçirilməsi, uzlaşmış təlim və məşğələlərin nəticələrinin qarşılıqlı təhlil və müzakirə olunması barədə tapşırıqlar verib.

Sonra "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirə keçirilib.

Ali Məclisin Sədri "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə tapşırıqların uğurla yerinə yetirildiyinə görə Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının şəxsi heyətinə təşəkkür edib.

Muxtar respublikamızda həyata keçirilən ardıcıl ekoloji tədbirlər bu gün dünya miqyasında nümunə kimi götürülür. Yeni yaşıllıq zolaqlarının və meşələrin salınması, təbiətin mühafizəsi, aparılan ardıcıl maarifləndirmə işləri nəticəsində insanların təbiətə doğma münasibətinin formalaşdırılması, təbii sərvətlərdən səmərəli istifadə Naxçıvanda bu sahədə uğurlu nəticələrin əldə edilməsinə səbəb olub. Görülən işlərin nəticəsində, artıq muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir. Vaxt var idi ki, bu rəqəm 0,6 faiz təşkil edirdi. Dünya miqyasında yaşıllıq sahələrinin sürətlə azaldığı bir vaxtda muxtar respublikada həmin sahələrin artması bu məsələdə dünya üçün növbəti Naxçıvan nümunəsini gündəmə gətirir.

Aprelin 27-də muxtar respublikada növbəti iməcilik keçirilib. Ali Məclisin Sədri yaşıllaşdırma tədbirində iştirak edib.

Müasir yol infrastrukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsidir. Çünki rahat və abad yol dayanıqlı iqtisadi inkişafı təmin edir. Görülən işlərin davamı olaraq bu il Şahbuz rayonunun Badamlı qəsəbə avtomobil yolu əsaslı şəkildə yenidən qurulur.

Aprelin 27-də Ali Məclisin Sədri yolda aparılan yenidənqurma tədbirləri ilə tanış olub, hava şəraitinə uyğun olaraq asfalt işlərinə başlanılması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

Muxtar respublikamızda iqtisadiyyatın hərtərəfli inkişafı təbii sərvətlərimizdən səmərəli istifadəyə imkan verir. Artıq diyarımız ölkəmizin əsas mineral su istehsalçısına çevrilib. "Badamlı" mineral suyu da bu gün geniş ixrac imkanlarına malikdir. Tələbatın artmasının nəticəsidir ki, hazırda Badamlı qəsəbəsində yeni zavod inşa olunur.

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Badamlı" mineral sular zavodunun inşası ilə maraqlanıb, istehsal sahəsində avadanlıqların quraşdırılması, zavodun ərazisində, eləcə də Badamlı qəsəbəsində abadlıq işlərinin aparılması barədə tapşırıqlar verib.

*Reallıq budur ki, tarixin hər bir inkişaf mərhələsinin özünəməxsus xüsusiyyətləri, hədəfləri və çağırışları vardır. Bu çağırışlara cavab vermək üçün elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqi tələb edilir və strateji yanaşmaların daha uzunmüddətli dövrü əhatə etməsi zərurəti yaranır. Muxtar respublikada fəaliyyətdə olan dövlət proqramlarının icrası zamanı məsələlərə yanaşmada müasir dövrün tələblərinin əsas götürülməsi, inkişafın planlaşdırılması və idarə olunmasına əsaslanan səmərəli idarəetmə sisteminin mövcudluğu davamlı yüksəlişi təmin edəcək əsaslı amillərdən biridir. Naxçıvanın bugünkü sürətli sosial-iqtisadi inkişafına paralel olaraq milli-mənəvi və ideoloji dəyərlərimizin ən yüksək səviyyədə yaşadılması, mədəni, elmi sahələrdə mühüm irəliləyişlərin əldə olunması Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelinin tərkib hissəsi kimi diqqəti cəlb edir.*

**Rauf KƏNGƏRLİ**

*Naxçıvan Muxtar Respublikasının qədim Ordubad şəhərinə səfər edən amerikalı jurnalist və tədqiqatçı Peter Tase yazır: "Ordubadın gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılara buranın qədim mədəniyyətini tanıtmaq imkanı vardır. Ordubad şəhərində XVI əsrə aid olan bazarın yanında hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası yerləşir. Tarixən bu regionda 3 belə Qeysəriyyə binası olub. Digər iki Qeysəriyyə binaları Səmərqənd və Təbrizdədir.*

**Naxçıvan Muxtar Respublikası – 95**

## Muxtariyyət illərimiz Ordubad rayonuna da töhfələrini verib

### *Tarixdən gələn səslər və ya muxtariyyətəqədərki dövrə ümumi baxış*

Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən-nəslə ötürür".

Tarixi minilliklərə sığmayan, hər daşında, qayasında ulu babalarımızın izləri yaşayan doğma Odlar yurdumuzun xəritəsində kiçik bir yer tutur Ordubad – Naxçıvan adlı sevgimin, doğulub boya-başa çatdığım yurdun bir parçası.

Kiçik Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Qapıcığı, həmçinin Böyük Soyuğu, Təkə qalasını, Salabin təpəsini qoynuna alan yurd yeri ecazkar Ordubad.

İlkin yaşayış məskənlərimizdən biri Ordubaddadır. Bu, Nuhun ayağı dəydiyi torpaqdır – Gəmiqaya.

XVII əsr tarixçisi İ.Münşi bu qədim yurd yerimiz haqqında yazırdı: "Günəş Ordubadın ulduzudur. O, behiştə verilən tərifə layiqdir. Hurimələklərin gözünü onun Nəzərə dağı işıqlandırır".

Ulduzu Günəş olan, tərifi behiştin tərifi ilə yanaşı tutulan bu qədim torpağın tarixini öyrənmək üçün ən etibarlı qaynaq bu şəhərin, bu rayonun tarixi-memarlıq abidələridir. Bu gün iki böyük şəhərin izləri yaşayır Ordubadda – Gilan və Azad şəhərlərinin. Onlar özlərində saxladığı izlərlə tariximizi bizə danışır, bugünkü nəsillərə söyləyir, bu salnaməni qorumağa, yaşatmağa çağırır. Elə bu tarixi özündə hifz edən abidələrə əsasən Ordubad şəhərinin ilkin qurulmasının V-VI əsrlərə aid olması güman edilir. Tarixi mənbələrdə isə adı ilk dəfə VII əsrdə çəkilir.

Ordubad şəhərinin qədim məhəllələrini gəzərkən özünü, sanki İçərişəhərdə hiss edirsən. Sırf bu yurd yerinə məxsus arxitektura üslubunda tikilmiş evlər səni nağıllar dünyasına aparır: insan təfəkkürünün gücünə heyran qalmaya bilmirsən.

...Babək qalası Ordubadın qəhrəmanlıq qalasıdır. Soyuq, Əcnövür, Bəlgə, Fələkbaba, Nəzərə dağlarının hərəsi yağı düşmənə baş əyməyən bir sipərdir. Zorxanası, Buzxanası bu günümüzlə dünənimiz arasında körpüdür.

Ordubadın muxtariyyət tarixini isə iki mərhələyə ayıra bilərik. 1924-cü ildən 1995-ci ilə qədərki dövr və həmin vaxtdan bu günədək olan zaman kəsiyi. Muxtariyyət əldə etdikdən sonra digər bölgələrimiz kimi, bu qədim yurd da yeni bir yola qədəm qoyub. 1969-cu ildən sonra isə tikinti-quruculuq işləri genişləndirilib, rayon mərkəzində və böyük kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlər həyata vəsiqə alıb. Bu gün Ordubad şəhərindəki bütün ictimai yaşayış binaları, bir neçə inzibati obyekt muxtariyyət illərinin yadigarlarıdır. Bu illərdə sənayenin, kənd təsərrüfatının inkişafı istiqamətində də tədbirlər həyata keçirilib. 1926-cı ildə Ordubadda barama toxumu istehsal edən zavod və corab-kəlağayı fabriki fəaliyyətə başlayıb. Hələ XIX əsrin sonlarından rayonda ipəkçilik inkişaf etdirilməyə başlamışdı. XX əsrin əvvəllərində artıq Ordubadda güclü ipəkçilər yetişmişdi. Onların istifadə etdikləri texnoloji avadanlıqlar burada yüksəkkeyfiyyətli ipək istehsalına imkan vermişdi. 1924-1940-cı illərdə bölgədə xam ipək istehsalı 2 min tondan 17 min tona çatdırılmışdı. Bu qiymətli məhsullar 13 dəfə qızıl medala layiq görülmüşdü. Rayon mərkəzindəki baramaaçan fabriki iki növbədə işləməklə yüzlərlə ordubadlının iş yerinə çevrilib.



Naxçıvanda yeyinti sənayesinin bünövrəsi də Ordubadda qoyulub. Belə ki, 1928-ci ildə Ordubadda meyvə-konserv zavodunun fəaliyyətə başlaması burada yeni iş yerlərinin yaradılmasına və bölgədə yetişdirilən dadlı-tamlı meyvələrdən istifadə edərək müxtəlif konservlər hazırlanmasına imkan vermişdi. Zavodda cəviz, tut, alma, heyva, armud, şaftalı, gilənar, gilas, qızılgül mürəbbələri, kompotlar hazırlanaraq SSRİ-nin müxtəlif respublikaları ilə yanaşı, xarici ölkələrə də göndərilirdi. Burada yetişdirilən meyvələr dəfələrlə beynəlxalq sərgilərə çıxarılmış, 9 qızıl medal almışdı.

Rayonda yaradılmış ictimai təsərrüfatlarda torpaqlardan səmərəli istifadə olunur, üzümçülük və heyvandarlıq inkişaf etdirilir, istehsal edilən məhsullar rayon iqtisadiyyatının gücləndirilməsinə, ordubadlıların maddi rifah halının yaxşılaşdırılmasına öz təsirini göstərirdi.




400-ə yaxın alim yetişdirən Ordubadda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı istiqamətində də gözəçarpan nailiyyətlər əldə edilib. Ötən əsrin 70-80-ci illərində Ordubad şəhərində, Dəstə, Vənənd, Sabirkənd və başqa yaşayış məntəqələrində təhsil, səhiyyə və mədəniyyət müəssisələri üçün yeni binalar inşa olunub. Bir neçə muzey yaradılıb. Azərbaycan Elmlər Akademiyasının Ordubad şəhərində 2 xüsusi elmi-texniki konstruktor bürosu fəaliyyət göstərib.

Ordubad şəhərinin qoruq şəhəri statusu alması da muxtariyyətin bu bölgəyə verdiyi töhfədir.

Sovet dönəminin son illərində bütün bölgələrimiz kimi, Ordubad rayonu da baş verən hadisələrdən sığortalana bilmədi. Ölkədə tüğyan edən anarxiya, xaos, özbaşınalıq Ordubadın da qaynar həyatını pozdu. Bəzi idarə və müəssisələr fəaliyyətini müvəqqəti olaraq dayandırdı. XX əsrin 70-80-ci illərində yaradılmış emal və istehsal müəssisələri iflic vəziyyətə düşdü. Bərəkətli torpaq sahələri əkilməmiş qaldı. Çətinliklər ordubadlıları sıxsa da, onlar doğma yurd yerindən üz döndərmədilər. Vətən, torpaq təəssübü hər şeyə üstün gəldi. Çünki onlar hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanırdılar. Və bu inamlarında yanılmırdılar. Bu ziya xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Ulu öndər Moskvadan Naxçıvana qayıtdıqdan sonra Ordubad rayonuna gəldi. Rayon mərkəzindəki böyük meydanda ordubadlıların ulu öndərimizi necə qarşılaması bu sətirlərin müəllifinin gözləri önündədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ulu öndər bu bölgənin əvvəlki həyat ritminə qayıtması üçün bir sıra işlər görülməsinə nail oldu. Bu isə bu gün də davam etdirilən tədbirlərin təməlidir. Böyük inkişaf və yeni tərəqqi müstəvisində olan Ordubadda son 24 il ərzində həyatın bütün sahələrində güclü yeniləşmə diqqəti çəkir. Bu dövrdə rayonda 29 tam orta, 1 şahmat, 1 uşaq musiqi, 1 sürücülük və texniki peşə məktəbi üçün yeni binalar inşa olunub, 20 kənd mərkəzi istifadəyə verilib. Kənd mərkəzlərinin yerləşdikləri yaşayış məntəqələrində fəaliyyət göstərən klub, mədəniyyət evi, kitabxana, ATS, rabitə evi, polis və baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılıb. 30 qaçqın və köçkün, 3 şəhid, 12 əlil ailəsi də belə qayğıdan yararlanıb. Tarixi-memarlıq abidələri olan Qeysəriyyəyə, Ordubad hamamına, 1 məbədə, 2 yeraltı abidəyə ilkinliyi saxlanılmaqla yeni həyat verilib. Sovet dönəmində 3 muzeyin fəaliyyət göstərdiyi rayonda hazırda 5 muzey öz qapılarını ordubadlıların və buraya gələn qonaqların üzünə açıb.

Rayonda həyata keçirilən quruculuq tədbirlərinin bir qolunu da xidmət mərkəzləri təşkil edir. Bu cəhətdən də Ordubad rayonu öndə gedən bölgələr sırasındadır. Hazırda 16 xidmət mərkəzi əhalinin istifadəsindədir. Ordubadlıların sağlamlığı keşiyində dayanmaq məqsədilə 25 səhiyyə ocağı yeni binada fəaliyyətini davam etdirir. Ötən dövrdə rayondaxili yollar cari və əsaslı təmir işləri ilə abadlaşdırılıb. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə Culfa-Ordubad yolu yenidən qurulur.

Bu dövrdə aqrar sahənin inkişafına xüsusi önəm verilib. Torpaq kənd adamlarının daimi iş yerinə çevrilib. Torpaq mülkiyyətçilərinin torpaqlardan səmərəli istifadəsi üçün meliorasiya və irriqasiya tədbirlərinin aparılması, onların müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı, kredit və yardımlarla təmin olunmaları diqqət mərkəzində saxlanılıb. Rayonda güclü sahibkarlıq mühiti yaradılıb. Rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələrində yeni emal və istehsal müəssisələri fəaliyyətə başlayıb. Bütün bunlar əhalinin həyat səviyyəsini yüksəldib.

Bir az əvvəl bəhs etdiyimiz qısa zaman kəsiyi, bu zaman kəsiyində həyata keçirilən tədbirlər rayonun simasını əsaslı surətdə dəyişməklə 95 illik muxtariyyət tariximizin ən şərəfli səhifələridir. Bu səhifələrdə ötən ilin nəticələri də böyük uğurlarla diqqəti çəkir. Bu dövrdə tikinti-quruculuq işləri davam etdirilib. Ordubad Dəmir Yol Vağzalının yeni binası və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binası, Ordubad şəhərində Rabitə evi istifadəyə verilib. Binanın ətrafı abadlaşdırılıb, yeni istirahət parkı salınıb.

Ordubad şəhərindəki 24 mənzilli yaşayış binası əsaslı təmir edilərək, Dəstə kəndində 900 şagird yerlik yeni məktəb, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi, mərasim evi tikilib, daxili yolların abadlaşdırılması işləri başa çatdırılaraq 2019-cu ildə istifadəyə verilib.

Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası və Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binasında əsaslı təmir işləri tamamlanmaq üzrədir.

Ordubad şəhərində içməli su və kanalizasiya sistemlərinin, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Kənddaxili yollar cari təmir olunur, kommunikasiya xətləri yenilənir. Ordubad-Culfa magistral yolu əsaslı şəkildə yenidən qurulur.

*Bu bölgə haqqında qeydlərimizi oxuyanlar yazımızın əvvəlində Ordubad haqqında deyilən qürurverici fikirlərə nə isə əlavə etmək istəyində ola bilərlər. Çünki saatbasaat dəyişən, gözəlləşən Ordubad bu gün ayrı büsatdadır. Bu büsatın təməlində muxtariyyətimiz, muxtar respublikanın bütün bölgələrinə göstərilən dövlət qayğısı durur. Qədim yurd yeri belə qayğı işığında daha gözəl sabahlara addımlayır, muxtariyyətin 95 yaşını böyük uğurları ilə qeyd edir.*

**✍ Muxtar MƏMMƏDOV**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Naxçıvan Qarnizonu qoşunlarında andiçmə mərasimləri olub

*Naxçıvan Qarnizonu qoşunlarında aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.*

Əlahiddə Ümumqoşun Orduda keçirilən andiçmə mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Gənc əsgərlər komandirlərinin və valideynlərinin şahidliyi ilə Vətənə sədaqət andı içərək yurdumuzun müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz veriblər.

Tədbirdə çıxış edənlər gənc əsgərlərə hərbi andı qəbul etmələri münasibətilə təbriklərini çatdırıblar.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Elman Orucov Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, qədim tarixə malik olan Naxçıvan muxtariyyətinin 95-ci ilində uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Ötən il Əlahiddə Ümumqoşun Ordunun hərb tariximizə qızıl hərflərlə yazdığı Günnüt zəfəri muxtar respublikamızın müdafiə qüdrətindən xəbər verir. Təbii ki, bütün bunlar da ümummilli lider Heydər Əliyev yoluna sədaqətin, muxtar respublikamızın hərtərəfli inkişafının və xalq-ordu birliyinin təntənəsidir.



* * *

Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında keçirilən hərbi andiçmə mərasiminə hazırlıq barədə raport verildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Mərasim ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra gənc əsgərlər hərbi andı qəbul ediblər. Briqada komandiri, polkovnik Səlim Niftalıyev çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün hərbi hissələr müasir texnikalar və avadanlıqlarla təchiz edilib, maddi-texniki baza təkmilləşdirilib. Gənc əsgərlər keçilən dərslərdə bu texnikalardan düzgün istifadəni dərindən öyrənməli, hərbi anda sadiq qalmaq hər bir əsgərin müqəddəs borcu olmalıdır.

Tədbirdə "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının zabiti, kapitan Orxan Seyidov Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərovun təbrikini şəxsi heyətə çatdırıb.

Andiçmə mərasimində Naxçıvan Dövlət Universitetinin müəllimi Xəzər Hüseynov, valideynlər adından isə İlqar Sabirli çıxış edərək hərbi xidmətin Vətən qarşısında müqəddəs borc olduğunu qeyd edib və əsgərlərə nümunəvi xidmət arzulayıblar.

Əsgərlər adından çıxış edən Elxan Zeynalov onların qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəklərinə, Vətənimizə şərəflə xidmət edəcəklərinə söz verib.

* * *

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında keçirilən andiçmə mərasimində isə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəis müavini, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev Sərhəd Diviziyasının maddi-texniki bazasının xeyli möhkəmləndirilməsindən, sərhəd zastavalarının müasir texnika, avadanlıq və ləvazimatlarla təmin olunmasından, yeni sərhəd infrastrukturu yaradılmasından danışıb, hərbi andı qəbul edən gənc əsgərləri təbrik edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər Vətəni ləyaqətlə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Andiçmə mərasimləri şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

**Xəbərlər şöbəsi**

İmadəddin Nəsimi – 650

# Böyük Azərbaycan şairi və mütəfəkkiri

*Bu il Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi təkcə ölkəmizdə deyil, bütün dünyada geniş tədbirlərlə qeyd edilir. Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi klassik Azərbaycan poeziyasında öz yaradıcılıq yolu ilə seçilən, anadilli poeziyamızın inkişafında müstəsna xidmətləri olan söz ustadıdır. Nəsimi yaradıcılığında insanın əzəməti, şəxsiyyətin azadlığı və məhəbbət ideyası mühüm yer tutur. Onun müxtəlif ideyalarla zəngin bədii irsi özündən sonra gələn Azərbaycan və digər xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərib.*



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə böyük ədibin irsinə yüksək qiymət verilmişdir. 1973-cü ildə YUNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi beynəlxalq miqyasda qeyd edilmiş, Azərbaycanda və Moskvada keçirilən yubiley tədbirlərinə dünyanın bir çox ölkəsindən nümayəndələr gəlmişlər. Bu dövrdə Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş, onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmış, “Nəsimi” filmi çəkilmiş, adına məktəb, küçə, gəmi verilmiş, haqqında elmi-tədqiqat əsərləri yazılmış, böyük şairin əsərləri çap edilmişdir. Bu gün AMEA-nın Dilçilik İnstitutu və Bakı şəhərinin rayonlarından biri Nəsiminin adını daşıyır.

Qüdrətli şairin yaradıcılığı Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən kütləvi tirajla nəşr olunaraq ölkə, o cümlədən muxtar respublika kitabxanalarına hədiyyə edilmişdir. 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimiyə həsr olunmuş şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il noyabrın 15-də “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır. Sərəncamda deyilir: “*İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir... Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir*”.

Nəsimi irsinin milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alan ölkə Prezidentinin 2019-cu il 11 yanvar tarixli Sərəncamı ilə 2019-cu il Azərbaycan Respublikasında “Nəsimi ili” elan edilmişdir. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasında da Nəsiminin 650 illik yubileyi ilə bağlı müxtəlif tədbirlər keçirilir, görkəmli şairin zəngin bədii irsi öyrənilir, tədqiq və təbliğ olunur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında fevral ayından başlayaraq böyük şairlə bağlı tədbirlərə start verilmiş, sərgi yaradılmış, şairin əsərlərinin və onun haqqında yazılmış elmi əsərlərin biblioqrafik icmalı hazırlanmışdır. Mart ayında böyük şairin yubileyi ilə bağlı Şərur rayonunda tədbir keçirilmişdir. Muxtar respublikanın rayonlarındakı kitabxanalarda da Nəsimi ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bundan başqa, ədəbiyyat profilli muzeylərdə də böyük şairin yubileyi ilə bağlı tədbirlərin hazırlanıb keçirilməsi planlaşdırılır.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin ədəbiyyat və ədəbi dil tariximizdə yüksək yeri vardır. Nəsimi ədəbiyyat tariximizdə fəlsəfi qəzəlin ilk kamil nümunəsini yaratmış ustad şairidir. Əruz vəzninin formalaşmasında misilsiz xidmətlər göstərən filosof şairin əsərləri Yaxın və Orta Şərq xalqları ədəbiyyatına, İslam Şərqinin bir sıra şairlərinin yaradıcılığına təsir göstərmiş, yeni ədəbi məktəb yaratmışdır.

Altı yüz ildən çoxdur ki, böyük şairimiz geniş bir coğrafi məkanda mərdlik, fədakarlıq və iradə rəmzi kimi özünə abidə ucaltmışdır. Öz ideyaları uğrunda mübarizə aparan, hətta son nəfəsində də öz ideyasından dönməyən bu böyük tarixi şəxsiyyətin yaradıcılığı haqsızlığa, ehkamçılığa, nadanlığa, zülmə, ədalətsizliyə qarşı orta əsr dünyasında parlayan bir günəşdir. Dərin dini-fəlsəfi biliyə malik sənətkar ana dilimizlə yanaşı, ərəb və fars dilində də ölməz əsərlər yaratmışdır. Onun qəzəllərində, rübailərində hürufiliyin müddəaları, şairin fəlsəfi görüşləri, həyat, dünya və kainat haqqında düşüncələri sənətkarlıqla ifadə edilmişdir.

Nəsimi poeziyasında mübarizə ruhu qüdrətlə tərənnüm etdirilir. Mübarizə ruhu bu poeziyanın əsas cövhəridir. Şairin fikrincə, ilahi varlıq səviyyəsinə yüksələn insan kamil olduğu zaman dünyanın sirlərinə vaqif olacaq, ədalətli cəmiyyət yaranacaqdır. Nəsimi şeirlərində ilhamla vəsf olunan kamil insan obrazı əzəmət və əyilməzlik simvoludur. Bu baxımdan “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” misrası ilə başlayan qəzəl Nəsimi yaradıcılığının kamil nümunəsidir.

Heç şübhəsiz ki, şair mürəkkəb və zəngin yaradıcılıq yolu keçmişdir. Yaradıcılığa aşiqanə lirik şeirlərlə başlayan gənc Nəsimi sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmışdır. Bu şeirlərdə, xüsusilə gənclik illərində yazdığı şeirlərdə insana məhəbbət, insan gözəlliyinin tərənnümü aparıcı mövzudur. Nəsiminin didaktik-tərbiyəvi mövzulu şeirlərində acgözlük, paxıllıq, xudpəsəndlik, riyakarlıq, xəyanət kimi yaramaz sifətlər qətiyyətlə pislənir.

Nəsimi poeziyası üsyankarlığı ilə seçilir. Şair qaranlıq bir mühitdə insanları və xalqları dostluğa, gözəlliyə, hünərli olmağa, buxovlardan azad olmağa səsləyir. Nəsimi həyat və etiqad qarşısında insanın vəzifələrini doğru başa düşmək üçün ayıq və cəsarətli olmağı tələb edir. Böyük şair feodal dünyasının ağır, amansız həyatından, hökmdarların zülm və özbaşınalığından şikayətlənir. O, zəmanəsindən narazı olmasına baxmayaraq, ümidsizliyə qapılmır, ömrü bəxtiyar keçirməyə çağırır. Şair xalqları bir-birinə yaxınlaşdıran, mehriban edən bir amala doğru gedir ki, bununla da bizim müasirimizə çevrilir. Böyük sənətkar dini ixtilafları pisləyir, məzhəb ayrılığına qarşı çıxır. İnsanı bir-birinə düşmən edən mənasız məzhəb ayrılıqları Nəsimi yaradıcılığında qətiyyətlə rədd edilir. Şairin insanpərvərliyinə qida verən məfkurə onun bütün yaradıcılığında özünü göstərməkdədir.

Nəsimi yaradıcılığında hürufiliyin qüvvətli təsiri danılmazdır. Lakin bu yaradıcılığın yalnız hürufi ideyalarının təbliğindən ibarət olduğunu demək doğru olmazdı. Şair olaraq o, həmişə həyatı duymuş, insana böyük qiymət vermiş, gözəlliyi, azadlığı tərənnüm etmişdir.

*İmadəddin Nəsimi öz əbədiyaşar yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına qiymətli yeniliklər gətirmiş, poeziyamızın inkişafına təkan vermişdir. O, Azərbaycan ədəbiyyatına humanist, üsyankar bir şair kimi əbədi daxil olmuş, şeirimizi mövzu, fikir və forma baxımından zənginləşdirmişdir. Nəsimi dilinin leksikası dilimizin altı yüz il bundan əvvəlki zənginliyini bu günümüzə daşımaqdadır. Şair folklorumuzun əlvanlığını da dilimizə qataraq möhtəşəm bir sənət dünyası yaratmışdır.*

**Natəvan QƏDİMOVA**
***Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri***

# Akademik Məmməd Cəfər Cəfərovun 110 illik yubileyi qeyd olunub



*AMEA Naxçıvan Bölməsində Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Məmməd Cəfər Cəfərovun 110 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.*

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq konfransın Prezident cənab İlham Əliyevin “Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında” 2019-cu il 15 aprel tarixli Sərəncamının əhəmiyyətindən danışıb. Vurğulayıb ki, alim Azərbaycan Dövlət Pedaqoji və Bakı Dövlət universitetlərində müxtəlif vəzifələrdə çalışıb, daha sonra fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, direktoru, eləcə də Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət Bölməsinin akademik-katibi kimi davam etdirib.

Məmməd Cəfər Cəfərovun Azərbaycanda ədəbiyyat nəzəriyyəsi məktəbinin əsas yaradıcılarından biri olduğunu deyən akademik bildirib ki, alim ölkə və dünya ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi və estetika, fəlsəfə məsələlərinə dair fundamental əsərlər yazıb. Bundan əlavə, alimin Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun kimi qüdrətli söz ustalarının yaradıcılığına həsr olunan tədqiqat işləri işıq üzü görüb.

İsmayıl Hacıyev görkəmli akademikin 700-dən çox elmi məqalənin, 30-dan artıq kitab və monoqrafiyanın, dərsliklərin müəllifi olduğunu diqqətə çatdırıb.

Konfransda İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun, filologiya üzrə fəlsəfə doktorları Nərgiz İsmayılova və Çinarə Rzayevanın məruzələri dinlənilib.

Tədbir çərçivəsində alimin əsərlərindən ibarət sərgi də təşkil olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Dörd gündə 6 humanitar aksiya

***Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümündə Naxçıvanda humanitar tibbi aksiyalar keçirilib.***

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri ötən şənbə Kəngərli rayonunun Qarabağlar kəndində təşkil olunmuş humanitar tibbi aksiyada 96 nəfəri ambulator tibbi müayinədən keçiriblər. Müayinələrin aparılmasında Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyevanın rəhbərliyi ilə 11 yüksəkixtisaslı həkim iştirak edib. Aksiya iştirakçılarına Naxçıvan Muxtar Respublika Xəstəxanasının ambulator kartları da təqdim olunmaqla ilk dəfə yeniliyə imza atılıb. Bu, aksiyada iştirak edən hər bir xəstənin səhiyyə müəssisəsinin xidmətlərindən daha rahat şəkildə istifadə etməsinə şərait yaradacaqdır.

Culfa rayonunda keçirilən humanitar tibbi aksiyada 78 nəfər ambulator müayinələrdən keçirilib, 35 xəstə üzərində cərrahi əməliyyatlar aparılıb.

Bu tədbir Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbində də keçirilib. Humanitar aksiya çərçivəsində məktəb yataqxanasında yaşayan 40 şagird gündəlik istehlak məhsulları, hər iki valideynini itirmiş 6 şagird isə geyim dəsti ilə təmin edilib.

Babək Rayon Mərkəzi Xəstəxanasında keçirilən humanitar tibbi aksiyada isə Naxçıvan Diaqnostika Müalicə Mərkəzi publik hüquqi şəxsin 34 həkim və tibb işçisi iştirak edib. 30 cərrahi müayinə, o cümlədən 21 göz, 10 dəri-zöhrəvi, 15 LOR, 35 fimoz, 5 hemorroidoektomiya əməliyyatı aparılıb, əhaliyə zəruri tibbi xidmət göstərilib. Xəstəxanada növbəti spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib.

Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 28 nəfərdən ibarət həkim briqadası Ordubadda dördgünlük humanitar tibbi aksiya keçirib. Ordubad Rayon Mərkəzi Xəstəxanasında 2 min 208 nəfər ambulator müayinə ilə əhatə olunub. Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan 114 nəfər üzərində müxtəlif əməliyyatlar aparılıb.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası həkimlərinin Şahbuz Rayon Mərkəzi Xəstəxanasında keçirdiyi humanitar tibbi aksiya zamanı 20 uşaqda fimoz, 3 uşaq üzərində isə hernioplastika cərrahiyyə əməliyyatı aparılıb.

Tibbi müayinə və müalicələrlə əhatə olunanlar muxtar respublika rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Elektron məlumat bankına 7316 uşaq haqqında fərdi məlumat daxil edilib

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası aprel ayında da davam etdirilib. Belə ki, ötən ay aztəminatlı ailədən olan 3 qadının peşə kurslarına cəlb olunması, 2 qadının isə işlə təmin edilməsi üçün məlumatları aid orqanlara göndərilmiş, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında istedadlı qadınların əl işlərinin satışı həyata keçirilmişdir. Şahbuz şəhərində və Şərur rayonunun Aşağı Yaycı kəndində “Reproduktiv sağlamlıq və ailə dəyərləri”, Ümumdünya Sağlamlıq Günü ilə əlaqədar “Sağlam həyat tərzi sağlam ailələrin formalaşmasının təminatıdır” mövzularında gənclərin iştirakı ilə tədbir keçirilmiş, 575 maarifləndirici broşür paylanılmışdır.

Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən BMT-nin İnkişaf Proqramının layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında “Dayanıqlı inkişaf üçün qadınların səlahiyyətləndirilməsi” layihəsinin həyata keçirilməsi ilə bağlı açılış konfransı olmuş, aid nümayəndələrlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 3 uşaq müəssisəsində monitorinq aparılmış, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 7316 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud 6 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmiş, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların valideynləri və psixoloqların iştirakı ilə görüş keçirilmişdir. Valideyn himayəsindən məhrum olmuş 3 uşağın uçotu aparılmış, Naxçıvan şəhərində fəaliyyət göstərən 5 uşaq bağçasında “Ağıllı uşaq” intellektual oyunu keçirilmiş, iştirak edən və qalib olan uşaqlara diplom və fəxri fərman verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Qəbul imtahanları keçirilib

Dövlət İmtahan Mərkəzi 2019-2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərə I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.

İmtahanda, ümumilikdə, 32 min 173 abituriyent iştirak edib. Onlardan 27 min 225 abituriyent I, 4948 abituriyent isə IVqrup üzrə imtahan verib.

Naxçıvan şəhərində imtahan 14 nömrəli tam orta məktəbdə keçirilib. Bunun üçün 32 imtahan zalı ayrılıb, 65 nəzarətçi və 6 imtahan rəhbəri cəlb edilib. 720 abituriyentin iştirak etdiyi imtahan saat $11^{00}$-da başlayıb və 3 saat davam edib.

İmtahandan dərhal sonra – saat $16^{00}$-da Dövlət İmtahan Mərkəzinin “Facebook” səhifəsi və “Youtube” kanalı vasitəsilə canlı yayım yaradılıb, imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

Nəticələrin 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Şahmat: 9-cu festivaldan söhbət açarkən…

*Artıq 9 ildir ki, Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümlərinə həsr olunan Beynəlxalq Şahmat festivalları keçirilir. 9 ildir ki, qoca Şərqin Naxçıvanı öz qapılarını 10-dan artıq ölkənin yüzlərlə şahmatçılarına, eləcə də qonaqlarına açır. 9 ildir ki, 10-dan artıq ölkənin mətbuat və televiziyası Naxçıvana baş tutan bu festivallardan yazır, yayımlayır. Festival başa çatır, Naxçıvan təəssüratları isə bitmir, tükənmir. 9 ildir ki, 10-dan artıq ölkənin yüzlərlə ailəsi öz övladını Naxçıvana yolçu edir. Yüzlərlə ailədə Naxçıvandan söhbət açılır. Yüzlərlə uşaq, gənc, orta, ahılyaşlı insan öz yaşıdlarına, "Naxçıvana gedirəm", – deyir, sosial şəbəkələrdə "Naxçıvana Beynəlxalq Şahmat Festivalına yollanıram" cümləsilə paylaşımlar edir. Yüzlərlə şahmatçının ata-anası, baba-nənəsi, yaxın qohumları festivalı izləmək üçün onlarla birlikdə Naxçıvana gəlir. Və gələnlərin hər biri "Yolçuluq Naxçıvanadır", – deyir. Builki festivala 14 ölkədən 356 şahmatçı gəldi. Deməli, 14 ölkədə Naxçıvandan danışıldı, 356 ailədə Naxçıvandan söhbət açıldı. Və Naxçıvan yenə də 356 şahmatçını və yüzlərlə digər qonağı layiqincə qarşılayıb, yola saldı.*

### *Ənənəvi festival Naxçıvanı beynəlxalq şahmat mərkəzinə çevirib*

Hər hansı festivalın, tədbirin ənənəvi xarakter alması illər, bir də zəhmət istəyir. Beynəlxalq Şahmat festivallarının ardarda 9 il keçirildiyi Naxçıvanda bu ənənəni təxəyyüllərdə ötən 9 il formalaşdırsa da, bu 9 ildən öncəki illər və gərgin zəhmətdir həmin





ənənənin təməli. İndi bəzi ölkələr hansısa bir beynəlxalq tədbirə ev sahibliyi edə bilmədiyi halda, muxtar respublikamızın, həm də blokada şəraitində olan diyarımızın bunun öhdəsindən layiqincə gəlməsi ötən, ümumilikdə, son 25 ilə yaxın dövrün zəhmətinin bəhrələridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalının açılış mərasimindəki nitqindən: ***"Azərbaycanda tarixən şahmat geniş yayılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə şahmat daha da inkişaf etdirilmiş, bu idman növü gənc nəslin intellektual potensialının formalaşdırılmasına öz töhfəsini vermişdir… Bu gün Azərbaycan o ölkələrdəndir ki, şahmat dövlət səviyyəsində himayə olunur. Ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmat sistemli və ardıcıl inkişaf etdirilir. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, muxtar respublikanın rayonlarında isə uşaq-gənclər şahmat məktəbləri tikilib istifadəyə verilmiş, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur. Hər il muxtar respublikada ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalının keçirilməsi isə Naxçıvanı beynəlxalq şahmat mərkəzlərindən birinə çevirmişdir".***

Bəli, Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafı, idmanın maddi-texniki bazasının gücləndirilməsi, bununla bağlı keçirilən müşavirələr, hər bir uşağın sağlam böyüməsinin vacibliyinin qarşıya vəzifə olaraq qoyulması, dəfələrlə söylənməsi, şəhər və rayonlarımızdan tutmuş ucqar dağ kəndlərimizədək bütün məktəblərdə idman zallarının, qurğularının yaradılması, şahmat fənninin tədris olunması, çoxsaylı tədbirlərin keçirilməsi bütün idman növlərinin, eləcə də şahmatın ildən-ilə daha da inkişaf etdirildiyinin göstəricisidir. Builki festivalda 200-dən artıq naxçıvanlı şahmatçının iştirakı da bunu bir daha təsdiqlədi.

Festival ərəfəsində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbovun Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti vəzifəsinə təyin edilməsini də Naxçıvanda şahmatın inkişafında qazanılan nümunəvi təcrübənin Azərbaycanda da yayılmasına göstərilən təşəbbüs kimi dəyərləndirmək olar.

### *Ən yaxşı startapçılar*

Psixoloqların fikrincə, şahmat onunla məşğul olanlara ən çətin tapşırıqları həll etmək və yeni ideyalar yaratmaq imkanı verir. Şahmatın bütün bu üstün cəhətləri nəzərə alınaraq illərdir ki, Naxçıvanda şahmatın inkişafı üçün hərtərəfli tədbirlər görülür. Artıq muxtar respublikada reytinqli şahmatçılar yetişir. Hazırda Naxçıvanda bir qrossmeyster, iki beynəlxalq şahmat ustası, üç FİDE ustası, bir beynəlxalq hakim və bir FİDE hakimi fəaliyyət göstərir. 4 minə yaxın gənc şahmatla məşğul olur. Bir çoxları hesab edir ki, şahmat təbiətdən, yəni anadangəlmə yüksək talant və intellektual qabiliyyətə malik olan insanlar üçün bir oyundur. Bu, müəyyən qədər həqiqətdir, amma şahmat oynayaraq öz intellektual qabiliyyətini yüksəltməyin mümkün olması da doğrudur. Bu, məsələnin birinci tərəfidir. Aparılan araşdırmaların şahmatın beyinin hər iki yarımkürəsinin fəaliyyətini aktivləşdirməsini, yaradıcılıq qabiliyyətini formalaşdırmasını, diqqəti cəmləməyi və mütaliə vərdişlərini təkmilləşdirməsini və yuxarıda da qeyd etdiyimiz kimi, yeni ideyalar yaratmaq imkanı verməsini də nəzərə alsaq, bu





gün muxtar respublikamızda şahmatla məşğul olan 4 min gəncin arasında onlarla ən yaxşı şahmatçı ilə yanaşı, ən yaxşı startapçıların yetişəcəyi də sözsüzdür…

### *Şahmat festivalları diyarımızı gözəl turizm məkanı kimi də tanıdıb*

Xüsusilə dəniz və limanlardan bəhs edən romanları ilə məşhurlaşan fransız yazıçısı Pyer Mak Orlan "Şahmat taxtasında bütün dənizlərdən daha çox macəra var", – deyirdi. Bəli, dünyanın, sadəcə, iki, lakin bütün rənglərin yaranma səbəbi olan ağ və qara xanalarda fiqurlara təfəkkür rəqsi etdirən şahmatçılar üçün digər rənglər daha da maraqlıdır. Odur ki, dənizlərdən dənizlərə keçdikcə, ölkələrdən ölkələrə səfər etdikcə ağ-qaradan başqa rəngləri də görməyə can atırlar. Bu rənglər isə ətrafda – təbiətdədir. Elə ötən 9 il Naxçıvana – Beynəlxalq Şahmat Festivalına gələn şahmatçıların, eləcə də qonaqların da hər biri ölkələrinə qayıdarkən festivalın təəssüratları ilə yanaşı, həm də bu qədim diyarın gözəl təbiətindən, tarixindən, mədəniyyətindən, gəzməli-görməli yerlərinə vurğunluqlarından, ümumilikdə, muxtar respublikamızın turizm üçün çox əlverişli bir məkan olduğundan danışırlar. Festivallarda ildən-ilə şahmatçıların və qonaqların sayının artması bunu bir daha təsdiq edir.

### *Bu mənada, zəka oyunçularının və qonaqların fikirləri maraqlıdır*

Şahmat lövhəsi üzərində zəka mübarizəsi aparanlar, təbii ki, ətrafda olanlara da fərqli zəka ilə yanaşır, fərqli qiymət verirlər. Builki festivalın iştirakçıları və qonaqları kimi. Amerikalı qrossmeyster Timur Qarayevin təəssüratları: – Naxçıvan şəhəri öz gözəlliyi və sakitliyi ilə məni valeh etdi. Eyni zamanda mədəniyyətlərimiz bir-birinə çox oxşayır. Deyə bilərəm ki, insanların isti münasibəti, qonaqpərvərliyi və davranışını gördükcə, özümü ölkəmdəki kimi hiss edirəm.

İran İslam Respublikasından gələn Reza İbrahimi deyir: – Bura hər gəlişimdə qədim diyarın gəzməli-görməli yerlərinə də səyahət etməyi çox xoşlayıram. Bu dəfə ailəmi də özümlə bərabər gətirmişəm ki, onlar da bu heyrətamiz məkanı doyunca seyr edib, gözəlliklərdən zövq alsınlar.

Festivalda iştirak edən övladları ilə birlikdə Naxçıvana gələn Qazaxıstan Respublikasının vətəndaşı Saule Jardemova: – Etiraf edim ki, muxtar respublikaya gəlməzdən əvvəl diyarınızın bu qədər ecazkar olacağını təsəvvür belə, etməzdim. Bura gəldim və Şərqin, Asiyanın ən gözəl şəhərlərindən biri ilə tanış oldum. Unikallığı ilə yanaşı, bu şəhərdə həm də yüksək Avropa mədəniyyəti formalaşıb. Daha doğrusu, Şərqin və Qərbin ən üstün dəyərlərini bu şəhərdə görmək olar. Binaların memarlıq quruluşu da diqqətimi cəlb etdi. Şəhərdə qədimliklə müasirlik bir arada yaşadılır. Hiss edirsən ki, Naxçıvanda tarixi keçmişə böyük hörmət göstərilməklə yanaşı, müasirlik də ön planda saxlanılır. Bu isə çox gözəl harmoniya yaradır.

### *Düşündürən nəticə…*

Hər iş, təbii ki, bir nəticə ilə sonlanır. Yuxarıda da söylədiyimiz kimi, doqquz ildir, Beynəlxalq Şahmat Festivalının iştirakçıları burada qarşılanmaları, yerləşdirilmələri, təşkilatçılıq işlərinin möhtəşəmliyi, bir də bənzərsiz təbiətimizin füsunkarlığı və doyumsuz mətbəximizin ləziz təamları ilə diyarımızdan son nəticə olaraq xoş təəssüratlarla ayrılırlar. Lakin bu yaxşı nəticənin düşündürən bir tərəfi də var. Sözsüz ki, zəka sahibləri Naxçıvanın tarixi haqqında da maraqlanmamış deyillər. Onların hər birinə qonşumuzun nankor ermənilər olması və onların torpaq iddiaları ucbatından Naxçıvanın 30 ilədək bir zamanda blokada şəraitində yaşaması da məlumdur. Ermənilərin tamahkarlığı tarixdən hamıya bəlli olduğu üçün bu, qonaqlarda da bir o qədər heyrət yaratmaya bilər. Lakin blokada şəraitində Naxçıvanın bu qədər hərtərəfli inkişafı, buradakı sabitlik, sakitlik illərdir, muxtar respublikamıza gələn hər bir qonaq kimi, zəka sahiblərini və onların ailə üzvlərini də düşündürən məsələdir. Lakin düşündürən bu suala bir zəka sahibi üçün cavab tapmaq da çətin deyil. Çünki şahmat taxtası üzərinə düzülən, sadəcə, fiqurlardır, onların gedişlərini, həm də qələbəyə aparan gedişlərini təmin edən insanlardır. Zəkalı insanlar…

**✍ Mətanət MƏMMƏDOVA**

## Kross qaçışı üzrə muxtar respublika turniri



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında muxtar respublika turniri keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi turnirdə 300-dən çox idmançı Duzdağ Fizioterapiya Mərkəzinin 5 kilometrlik məsafəsində finiş xəttini keçməyə çalışıb.

Turnirin açılış mərasimində Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov, Gənclər və İdman naziri Azad Cabbarov çıxış ediblər.

Muxtar respublika turnirinin yekun nəticəsinə gəlincə, qızların mübarizəsində qalib adını Aysu Abbasova ("Rabitəçi") qazanıb. Digər iki pillədə isə Xatun Oruclu ("Rabitəçi") və Nazlıcan Çakır (Naxçıvan Dövlət Universiteti) qərarlaşıblar.

Oğlanların mübarizəsində Əmrah Nağıyev ("Rabitəçi") finiş xəttinə hamıdan öndə çatıb. Qəşəm Səfərov və Səfər Tağıyev (hər ikisi "Rabitəçi") isə ikinci və üçüncü olublar.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

## Yenə zirvədə!

***Bakı şəhər Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasının yarış zalında 20 və 23 yaşlı gənclər arasında keçirilən ağır atletika üzrə Azərbaycan birinciliyinə yekun vurulub.***



Yarışda 100-ə yaxın atlet iştirak edib. Ölkə birinciliyində muxtar respublikanı Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev təmsil edib. İdmançımız körpücük üzərinə 96 kiloqram çəki dərəcəsində çıxıb. O, birdən qaldırmada 135, təkanla isə 155 kiloqram çəki dərəcəsinin öhdəsindən gəlib. Ümumilikdə, 290 kiloqram çəki dərəcəsini ram edən idmançımız növbəti dəfə ölkə çempionu adını qazanıb.

İdmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Məktəblilərimiz üçüncü olub



Bakı şəhərində "Şahin" hərbi idman oyununun Azərbaycan birinciliyi keçirilib. Birincilikdə Naxçıvan Muxtar Respublikasını Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası təmsil edib.

17 komandanın iştirak etdiyi birincilikdə 1 nömrəli tam orta məktəbin komandası üçüncü yerə layiq görülüb.

Sonda iştirakçılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Məmmədova Nuridə Qəhrəman qızının adına 2007-ci ildə Naxçıvan Müəllimlər İnstitutu tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

* * *

Səfərov Şəmsəddin Qulam oğlunun adına olan JN-564A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Kosacan kənd sakini Əsədova Sədaqət Cəbrayıl qızının adına verilmiş 102013004744 reyestr nömrəli çıxarış və torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Mustafayeva Günay Afiq qızının adına Naxçıvan Musiqi Kolleci tərəfindən verilmiş AA-N067595 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 335